AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 02.05.2016 |
| Qeydiyyat nömrəsi | 02 |
| Adı | Azərbaycan Respublikasının Energetika Nazirliyinin Kollegiyasının 2014-cü il 17 noyabr tarixli 7 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyinin Dövlət Qaz Nəzarəti İdarəsinin yerli bölmələri haqqında Əsasnamə"də dəyişikliklər edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 06.05.2016 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 120.120.180 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201605020002 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 05.05.2016 |

"Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1326-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 12 noyabr tarixli 673 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Energetika Nazirliyinin Kollegiyası Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.10.6-cı yarımbəndini rəhbər tutaraq

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin Kollegiyasının 2014-cü il 17 noyabr tarixli 7 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyinin Dövlət Qaz Nəzarəti İdarəsinin yerli bölmələri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1.1.4-cü abzasda "göstəricilərinin" sözündən sonra " (tərkibi, sıxlığı, rütubətliliyi, istilik yaratmaq qabiliyyəti və digər)" sözləri əlavə edilsin .

1.2. 3.1.4-cü yarımbəndə "sənaye" sözündən sonra "qaz" sözü əlavə edilsin.

1.3. 3.1.6-cı yarımbəndə "sənaye" sözündən sonra "qaz" sözü əlavə edilsin.

2. Hüquqi münasibətlər şöbəsinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

3. Bu Qərarın icrasına nəzarət nazir müavini Gülməmməd Cavadova həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikasının**
**energetika naziri** **Natiq Əliyev**